

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

5 aprel 2024-cü il
Cümə

1933-cü ildən çıxır
№ 12 (3676)


# Regiondakı Azərbaycan reallığı

## Ölkəmiz olmadan heç bir siyasi və iqtisadi layihə gerçəkləşə bilməz

**Regionda baş verən hadisələrə keçmiş zamanda fikir bildirmək günümüzlə səsləşməsə də Qafqazı Azərbaycansız təsəvvür etmək düşmənlərin arzusu idi. Məhz bütün proseslər bu arzunu reallaşdırmaq üçün start götürmüşdü.**

Lakin hadisələr düşmənlərin və havadarlarının proqnozlaşdırdığı kimi inkişaf etmədi. Vətən müharibəsi məkrli planların üstündən xətt çəkdi, “Qafqazda sülh istəyənlərə” regiona təsir edəcək gücə malik bir dövlətin varlığı ilə barışmaqdan başqa bir yol qoymadı. Mehriban qonşuluq siyasətinin müharibə ilə əvəzlənməsi ürəkaçan olmasa da Azərbaycan “qoca qitə”dən və okeanın o tayından gələn vədlərə aldanan Ermənistana beynəlxalq hüququn tələblərinə riayət etməyi döyüş meydanında silah dili ilə başa saldı.



### Qələbəmizin təməli

Müasir müharibələrin gedişatını müasir silahlar dəyişsə də insan əsas faktorlardandır. Müharibə bitdikdən sonra Ermənistanda onminlərlə fərarinin olması barədə statistika düşmən ölkənin ordusunun hansı səviyyədə olmasından xəbər verirdi. Azərbaycanda isə tam əksinə, hər kəs Ali Baş Komandanın hücum əmrini gözləyirdi: “Ən önəmlisi elə bir gənc nəsil yetişdirildi ki, bu gənc nəsil bizim xalqımız üçün əbədi qürur mənbəyi olacaq və bütün dünyaya Azərbaycan xalqının böyüklüyünü nümayiş etdirmişdir. Bizim gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda yetişdirildi”. Prezident İlham Əliyevin bu fikirlərini bu gün Azərbaycana düşmən olanlar heç vaxt unutmayacaqlar. Və etiraf edək ki, onların hədəfi həm də uğurlarımızın altında imzası olan Azərbaycan gəncliyidir.

Anti-terror əməliyyatlarından sonra bölgədə yeni iqtisadi nizamın formalaşmasında Azərbaycanın rolu inkar edilməzdir. Möhtərəm Prezidentimizin siyasəti ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində güclü və nüfuzlu dövlət, həmçinin etibarlı tərəfdaş kimi tanınmasına yol açıb. Regiona maraq artır, Azərbaycan bölgəyə xarici sərmayənin cəlb olunması istiqamətində fəal iş aparır. Burada enerji, kommunikasiya və qarşılıqlı maraq doğuran digər məsələlər önə çıxır ki, sülhün əldə olunması yeni mərhələdə qlobal inkişaf konsepsiyasının aparıcı indeksi kimi müəyyənləşir. Bu fakt həm də qarşılıqlı inteqrasiyanı gücləndirən amilə çevrilir. Lakin təəssüflər olsun ki, bəzi güclər özünün marağını Cənubi Qafqaza məhz Ermənistan üzərindən “daşımağı” planlaşdıraraq beynəlxalq hüququn tapdanması bahasına olsa belə, Azərbaycan, eləcə də bölgə ətrafında “çəmbər” yaratmaq üçün səfərbər olublar. Məqsəd bölgənin inkişafına, mehriban qonşuluğun daha da möhkəmlənməsinə xidmət edən sülhə əngəl törətməkdir. Son günlər Ermənistanın ona uzadılan kömək əlini görməzlikdən gəlməsi və Azərbaycanla sərhəddə fəallaşması ölkəmizin bölgədə yaratdığı reallığa elə də ciddi təsir göstərməyəcək. Çünki Azərbaycan həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa edib, prosesi yekunlaşdırıb. Bundan sonrasını artıq Ermənistan düşünməlidir.

# Əlaqələr inkişaf edir

## Bu, ticarət dövriyyəsində müsbət dinamika yaradacaq

Aprelin 4-də Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso Respublikamıza rəsmi səfərə gəlib.

Ali qonağın rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevlə Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun təkbətək görüşü olub. Təkbətək görüş bitdikdən sonra hər iki prezidentin geniş tərkibdə görüşü keçirilib.

Prezident Deni Sassu-Nqessonun ölkəmizə səfərinin böyük əhəmiyyət daşıdığını bildirən dövlətimizin başçısı bu səfərin gələcək əməkdaşlığımıza da çox müsbət təsir göstərəcəyini vurğulayıb. COP29-la bağlı birgə işləməyə hazır olduğunu deyən Prezident İlham Əliyev ölkəmizə verilən dəstəyə görə Prezident Deni Sassu-Nqessoya təşəkkürünü bildirib.

Həmin gün Azərbaycan-Konqo sənədlərinin imzalanması mərasimi olub.

Prezidentlər “Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə”ni imzalayıblar.

Ali qonağın şərəfinə rəsmi nahar verildikdən sonra Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

# Dost, qardaş, strateji müttəfiq

## Birgə səylər yüksək qiymətləndirilib

Prezident İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Qəbulda Türkiyənin aparıcı şirkətlərinin rəhbərləri də iştirak ediblər. Söhbət zamanı əlaqələrin bütün istiqamətlərdə, o cümlədən hərbi və müdafiə sənayesi sahəsində uğurla inkişaf etdiyi qeyd olunub.

Azərbaycanda müdafiə sənayesinin inkişafı ilə bağlı ciddi addımların atıldığını vurğulayan dövlətimizin başçısı Türkiyənin aparıcı şirkətlərindən ibarət nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkanlar yaratdığını deyib. Qəbula görə minnətdarlığını bildirən qonaq səfər çərçivəsində Türkiyə nümayəndə heyətinin tərkibində olan şirkətlər ilə Azərbaycan müdafiə sənayesi şirkətləri arasında bir neçə istiqamətdə birgə fəaliyyətlə bağlı anlaşma memorandumlarının imzalanması barədə dövlətimizin başçısına məlumat verib.

H.Görgün Vətən müharibəsindəki Zəfərimizi və İlham Əliyevin prezident seçkilərində qalib gəlməsini bir-birinin ardınca qazanılan qələbə hadisələri kimi qiymətləndirib. O, dövlətimizin başçısının bu ilin fevralında Türkiyəyə rəsmi səfərinin əlaqələrimizin inkişafında rolunu xüsusi qeyd edib.

# Nazir vətəndaş qəbulu və sıra baxışı keçirib

## Vətən müharibəsi iştirakçısı olan 32 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 4-də Hacıqabul Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Hacıqabul rayonundakı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

*(Ardı 2-ci səhifədə)*




# Kosmik gücə çevrilirik

## “Azərkosmos”un xidmətləri gəlir gətirir

Cari ilin yanvar-fevral aylarında Azərbaycanın Kosmik Agentliyi tərəfindən dünyanın 45 ölkəsinə 3 milyon dollar dəyərində xidmət ixrac olunub. Bu da ötən ilin yanvar-fevral ayları ilə müqayisədə 6 ölkə çox və 16,7 faiz azdır.

Yəni “Azərkosmos”un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 77 faizidir. Bu ilin fevral ayında isə “Azərkosmos” dünyanın 41 ölkəsinə 1,6 milyon dollar dəyərində xidmət ixrac edib.

Bu ilin yanvar-fevral ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 886,1 min dollar ilə Birləşmiş Krallıq, 650,3 min dollar ilə Lüksemburq, 219,1 min dollar ilə BƏƏ, 139,1 min dollar ilə Pakistan və 135,4 min dollar ilə Almaniya qərarlaşıb.


COP-29-a hazırlaşırıq 2

Etimadı və etibarı doğruldacaqlar 3

Gənclərə seçim imkanı verilib 3

Qızıl medal qazandı 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Xüsusi hüquqi baza hazırlanıb

Kibercinayətkarlığın bütün növlərinin qarşısının alınması üçün xüsusi hüquqi baza hazırlanıb. Məsələ ilə bağlı Prezidentin köməkçisi, Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov bildirib ki, real vaxt rejimində bir sıra cinayət təqibi, eləcə də digər qaydaların qanunvericilikdə təsbit edilməsi bu istiqamətdə işləri daha da asanlaşdıracaq.

### Ədalət mühakiməsi rəqəmsallaşdırılır

Ali Məhkəmə və Məhkəmə-Hüquq Şurası tərəfindən hüquq-mühafizə orqanlarının, eləcə də məhkəmə hakimiyyətinin işinə önəmli töhfə vermək məqsədilə dövlət orqanlarının qarşılıqlı elektron fəaliyyətini özündə əks etdirən yeni konsepsiya hazırlanıb. "E-Justice" adlı platforma elektron ədalət mühakiməsinin həyata keçirilməsinə xidmət edir. "Elektron ədalət mühakiməsi" sistemi mülki, kommersiya, inzibati, cinayət və inzibati xətalara dair işlər üzrə icraatın rəqəmsallaşmasını təmin edən mərkəzləşdirilmiş bir platformadır.

### Ombudsman çağırış edib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Tərtər və Ağdamdakı mina partlayışları ilə bağlı məlumat yayıb. Məlumatda "Beynəlxalq ictimaiyyət Ermənistanın mina terroruna səssiz qalmamalı, dəqiq mina xəritələrinin Azərbaycana təqdim edilməsi üçün bu ölkəyə ciddi təzyiq göstərməlidir",- deyə bildirilir.

### Qarabağda məşğulluq təmin edilir

Azad edilmiş ərazilərə qayıdan 1500 nəfər daimi işlə təmin edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, indiyədək təxminən 5 mindən artıq keçmiş məcburi köçkün öz yurduna qayıdıb.

### Taksilər üçün icazə şərtləri

Taksi fəaliyyəti üçün icazələrin verilməsi Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən yaradılan "AYNA" informasiya sisteminin "Daşıyıcılar" alt sistemi üzərindən elektron qaydada həyata keçirilir. İstifadəçilər **https://e-xidmet.ayna.gov.az/** linkinə daxil olaraq, avtomobil nəqliyyatı ilə sərnişin və yükdaşımaları sahəsində icazənin verilməsi üçün müraciət bölməsini seçməlidirlər. İcazəsi olmayanlar barəsində İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müvafiq qaydada inzibati tənbeh tədbirləri görüləcək.

### Neftimiz bahalaşıb

Dünya bazarında Azərbaycan neftinin qiyməti artıb. "Azeri Light" markalı neftin bir barelinin qiyməti 2,63 dollar və ya 2,95 faiz artaraq 91,85 dollar olub. Qeyd edək ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

### Ünvanlı dövlət sosial yardımın məbləği artıb

2024-cü ilin mart ayında orta hesabla bir ailəyə ödənilən ünvanlı dövlət sosial yardımının məbləği 15,0% artıb. Bu barədə Dövlət Sosial Müdafiə Fondundan xəbər verilib. Beləliklə, ötən ilin mart ayında orta hesabla bir ailəyə ödənilən ÜDSY-nin məbləği 422,3 manat idisə, bu ilin müvafiq dövründə artaraq 485,6 manat təşkil edib.

### Vəkil orderləri elektronlaşdırılır

Bunu Vəkillər Kollegiyasının sədri "Elektron vəkil orderi" və digər elektron xidmətlərin təqdimatı zamanı deyib. O, bildirib ki, vəkillik üçün elektron xidmətlərdən istifadə prioritetlərdəndir: "Əvvəllər vəkil orderləri kağız daşıyıcısı üzərindən təqdim edilib. Hazırda isə "Elektron vəkil orderi" layihəsinin davamı kimi "Elektron vəkil sorğusu" layihəsi üzərində işlər yekunlaşmaqdadır. Müasir texnologiya vəkillərin heç bir problem olmadan müştəri ilə müqavilə bağlamasına imkan verir".

### Laçınlılar doğma yurda qayıdır

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı mart ayının 30-da Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 21 ailə - 68 nəfər, Laçın rayonunun Zabux kəndinə 4 ailə, 11 nəfər köçürülüb. Bununla da indiyədək Laçın şəhərində 472 ailənin, yəni 1773 nəfərin, Zabux kəndində 215 ailə, 819 nəfərin daimi məskunlaşması təmin edilib.

# Nazir vətəndaş qəbulu və sıra baxışı keçirib

## Vətən müharibəsi iştirakçısı olan 32 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb



*(Əvvəli 1-ci səhifədə)*

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Hacıqabul, Şirvan, Salyan və Neftçala şəhər və rayonlarından qəbula gələn 87 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib. 32 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 109 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.



# Müsabiqənin qalibi Polis Akademiyası olub

## Yaradılmış şərait, bilik və bacarıq uğura yol açır

Bu günlərdə Daxili İşlər Nazirliyinin Polis Akademiyası və "ELSA Azərbaycan"ın birgə təşkilatçılığı ilə ərsəyə gələn "Şəxsi axtarış və götürmə" müsabiqəsinin final mərhələsi keçirilib.

Əvvəlcə tədbirə qonaq qismində qatılan respublikanın müxtəlif ali məktəblərində hüquqşünaslıq üzrə təhsil alan tələbələr Polis Akademiyasının "Rayon Polis Şöbəsi" tədris modulu, şərti məhkəmə zalı, kriminalistik şəhərcik və digər interaktiv otaqlarla yaxından tanış olublar.

Ərazi bütövlüyümüz uğrunda şəhid olanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən və Dövlət himni səsləndirildikdən sonra tədbirin rəsmi hissəsi başlayıb. Komandalara uğur arzulayan DİN-in Polis Akademiyasının rəisi polis general-mayoru Canpolad Daanov bu qəbildən olan yarışların keçirilməsinin




praktik biliklərin zənginləşməsində böyük rolu olduğunu vurğulayıb. Sonra final mərhələsinə vəsiqə qazanan DİN-in Polis Akademiyasının və Dövlət İdarəçilik Akademiyasının komandaları verilən tapşırıqlar üzrə istintaq hərəkətlərinin aparılması üçün öz bacarıqlarını nümayiş etdiriblər. Bu mərhələdə istintaq hərəkətlərini simulyasiya formasında icra edən komandaların fəaliyyəti DİN-in, Baş Prokurorluğun və Vəkillər Kollegiyasının nümayəndələri tərəfindən qiymətləndirilib.

Qeyd edək ki, Polis Akademiyasını əyani təhsil üzrə 4-cü kurs kursantları Güloğlan İsmayılzadə və Vəli Vəliyev təmsil edib.

Nəticələr hesablandıqdan sonra müsabiqənin qalibi Polis Akademiyasının komandası elan edilib.

# COP-29-a hazırlaşırıq

## Azərbaycandakı sabitlik mühüm faktordur

**Dünyanın iqlim təhlükəsizliyini qorumaq üçün Bakıda keçiriləcək sayca 29-cu toplantıya təxminən 7 ay qalır. Tərəflər Konfransına getdikcə daha çox ölkə, təşkilat və fərdlər qatıldığına görə iştirakçı sayı ilbəil artan beynəlxalq tədbirə bu dəfə virtual izləyicilərlə birlikdə təxminən yüz min nəfərə qədər iştirakçının qatılacağı gözlənilir.**

Bu tədbirlər silsiləsi ilə dünya atmosferdə karbon qazının miqdarını sənayeləşmədən əvvəlki dövrdə olduğu kimi 1,5 dərəcədə saxlamağa çalışır. İqlim təhlükəsizliyi ilə bağlı belə bir toplantıya ictimai təhlükəsizlik baxımından dünyanın ən sabit ölkələrindən biri kimi önə çıxan Azərbaycanın ev sahibliyi etməsi bizi qürurlandırmaya bilməz, şübhəsiz ki. Konfransın siyasi tərəflərini politoloqların təhlil edəcəyi məsələ olduğu üçün biz mövzuya sırf sabitlik, təhlükəsizlik prizmasından yanaşırıq.

### Sabitlik harmoniyası

Bu qədər mötəbər tədbirə evsahibliyi etməklə Azərbaycan növbəti dəfə özünün yüksək təhlükəsizlik indeksinin beynəlxalq səviyyədə qəbul edildiyini təsdiqləmiş oldu. Cinayətkarlıq səviyyəsinin təhlili qonşu ölkələrlə müqayisədə, həttа, daha geniş coğrafiyada ölkəmizin etibarlı sabitliyi ilə fərqləndiyini, seçildiyini uzun illər idi ortaya qoyurdu. Ötən ilin sentyabrında antiterror əməliyyatı ilə suverenliyini tam bərpa edən Azərbaycanın bütün ərazisində qanunların işlək hala gəlməsi, hüquqi yurisdiksiyanın təmini isə münaqişədən qaynaqlana biləcək növbəti müharibə riskini də aradan qaldırmış oldu. Ölkəmizin uzunmüddətli sülh axtarışlarını hazırda güclü ordu və daxildəki etibarlı sabitlik, dövlət-vətəndaş birliyinin harmoniyası dəstəkləyir.

Əslində, dəfələrlə beynəlxalq miqyaslı tədbirləri çox yüksək səviyyədə təşkil edib keçirmək bacarığını göstərmiş ölkəmiz istənilən tədbirə evsahibliyi etmək gücünə çoxdan qovuşub. Bu baxımdan, beynəlxalq ictimaiyyət aradığı tam güvənli dövləti çoxdan tanıyırdı.

Təbii ki, bu konfrans çoxlarının da qeyd etdiyi kimi, indiyədək ölkəmizdə keçirilən bütün tədbirlərdən yalnız mövzusuna görə fərqlənmir. Tədbirə birbaşa qatılan iştirakçı sayının çox olması ictimai-asayişi təmin etmək üçün daha gərgin səy tələb edir. Ölkəyə gələn qonaqların, xarici media nümayəndələrinin qorunması, müzakirələrin keçirildiyi ərazilərdə ictimai qaydanın mühafizəsi, buraxılış məntəqələrində yoxlamaların keçirilməsi, eləcə də insanların rahat, maneəsiz hərəkət etmələrinin təmini kimi vəzifələr əsasən daxili işlər orqanlarının "çiyinlərindədir".

### O gün gələndə...

Müasir texniki imkanlara bələd polisin peşəkarlığı, riskləri analiz edib zərərsizləşdirmək səriştəsi kütləvi tədbirlərin təhlükəsizliyinin təmini üçün başlıca şərtlərdəndir. Ölkəmizin indiyədək evsahibliyi etdiyi tədbirlər zamanı polisin mənimsədiyi zəngin təcrübə əməkdaşların belə peşəkarlıq keyfiyyətlərini bir qədər də artırıb. Üstəlik, zamanla əcnəbi kontingetlə ünsiyyət zərurəti xarici dil biliklərinə sahib əməkdaşların hazırlanmasına gətirib çıxarıb. Bu isə o deməkdir ki, tədbirlərin təhlükəsizliyinə cəlb edilən polislərin əcnəbilərlə artıq dil baryeri yoxdur, bunu ölkəmizə gələn qonaqlar da bir qayda olaraq polisin xidmətindən razılıq etməklə dilə gətirirlər. Belə nümunələr daxili işlər orqanlarının xidməti beynəlxalq standartlar səviyyəsində təşkil edə bilən əməkdaşlardan komplektləşdiyini göstərir.

Son olaraq onu deyə bilərik ki, Tərəflər Konfransına müxtəlif ölkələrdən dövlət başçılarının, yüksək ranqlı hökumət nümayəndələrinin dəvət edilməsi bu tədbirə siyasi mahiyyət qatır. Ona görə o gün gələndə polis, həm də dövlətin adını, nüfuzunu qorumuş olacaq.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Etimadı və etibarı doğruldacaqlar

## Daxili işlər naziri gənclərə tövsiyələrini verib



Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 2-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 205 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 24 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Torpaq qorunanda Vətən olur

## Səngərdə sipər olanlar bu gün sıramızdadır

**Vətən müharibəsində düşmənə qan udduran oğulların bir arzusu, bir amalı vardı-torpaqlarımızı işğaldan azad etmək. Gücümüzü birliyimizdən alaraq 30 ilin tilsimini sındırıb bütöv Vətəni bağrımıza basdıq.**





Bütün suallara cavab Şuşada dalğalanan üçrəngli bayrağımız oldu. Dövlətimizin rəsmi şəkildə qəbul olunmuş paytaxtı Bakı olsa da, ruhumuzun mənəvi paytaxtı Xankəndi idi. Ona qovuşmağı xəyal edirdik, arzulayırdıq. Sən demə, bu arzuları, xəyalları gerçəyə çevirmək üçün cəmi 23 saat lazım imiş. Yurd nisgilimizə son qoyan oğulları tanımaq, tanıtdırmaq isə həm borcumuzdur, həm də vəzifəmiz. Onlardan biri də dünən səngərdə Vətənə sipər olan, bu gün isə sıralarımızda xidmət edən Bakı Metropolitenində Polis İdarəsinin polis nəfəri Kərimov Kamil Kamran oğludur. O, 2002-ci il aprelin 14-də Bakıda doğulub. Xətai rayonundakı şəhid Allahverdi Xəlilov adına 263 nömrəli tam orta məktəbdə təhsil aldıqdan sonra 2020-ci ilin aprelində həqiqi hərbi xidmətə yollanıb. Həmin il sentyabrın 27-də başlayan Vətən müharibəsində Cəbrayılın, Xocavəndin, Hadrutun düşməndən azad edilməsində iştirak edib.

K.Kərimov Vətən müharibəsindən qayıtdıqdan sonra dövlətimizin sütunlarından biri olan daxili işlər orqanlarında xidmət etmək arzusuyla DİN rəhbərliyinə müraciət edib. Müraciəti müsbət həllini tapıb və müvafiq seçim turundan sonra sıralarımıza qəbul edilib.

O, "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medallarıyla təltif olunub.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Məktəblilər polisin qonağı oldular

## Təbliğat günün tələbinə çevrilib

**Sabirabadda yuxarı sinif şagirdlərinin təşəbbüsü maraqla qarşılanıb. Onlar polisin iş şəraiti ilə tanış olmaq, fəaliyyətini daha yaxından izləmək üçün Rayon Polis Şöbəsinə gəliblər.**

Məktəblilərə əvvəlcə inzibati binanın sıra meydanında müxtəlif xidmətlərə təhkim olunmuş xidməti avtomobillər, xüsusi texniki vasitələr və avadanlıqlar nümayiş etdirilib. Sonra şöbənin inzibati binasında şagirdlər konfrans zalı, dərs və xidməti otaqlarla tanış olub, növbətçi hissənin iş prosesini izləyiblər.

Qeyd olunub ki, vətəndaşa haqq və hüquqlarının qorunması, problemlərinin həlli ilə bağlı üz tutduğu ilk ünvanın polis olması, onun xilaskarlıq missiyası barədə ilkin məlumat növbətçi hissədə verilir. Çünki burada müraciətlər operativ şəkildə qeydə anılır, yönləndirilir və həllini tapması üçün lazımi tədbirlər görülür. Şöbə ilə tanışlıq məktəblilərin marağına səbəb olub və onları maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

*Nizam Həmidov,*
*polis kapitanı*

# Gənclərə seçim imkanı verilib

## Polis olmaq istəyənlərin arzusu gerçəkləşir





Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq məqsədilə Nazirliyin nümayəndələri Mingəçevir şəhərində yuxarı sinif şagirdləri ilə görüş keçiriblər.

Görüşdə şagirdlərə polisin tarixi, daxili işlər orqanlarına xidmətə qəbul qaydaları, DİN sistemində təhsil almaq imkanları barədə məlumat verilib, həmçinin Polis Akademiyasında yaradılan şərait-müasir tədris korpusları, zəngin kitabxanalar, laboratoriyalar, yataqxanalar, idman və atıcılıq meydançaları "Virtual Akademiya" platforması vasitəsilə nümayiş olunub.

Qeyd olunub ki, bu il Polis Akademiyasına "hüquqşünaslıq" ixtisası üzrə 2024/2025-ci tədris ilində əyani təhsilə 500 kursantın qəbulu nəzərdə tutulub.

Gənclər üçün yaradılan şəraitdən onların maksimum yararlanacaqlarına inamlarını ifadə edən polis əməkdaşları daxili işlər orqanlarının ölkəmizdə təmin etdiyi etibarlı sabitliyə töhfə vermək üçün onlara yaxşı oxumağı, idmanla məşğul olmağı və zərərli vərdişlərdən uzaq durmağı tövsiyə ediblər.

# Polis maarifləndirir

## Yol hərəkəti qaydalarını uşaqlar da bilməlidir

**"Yol hərəkəti qaydalarını öyrənək və əməl edək!" mövzusunda maarifləndirici görüş bu dəfə ERA tam orta məktəbində keçirilib.**



Uşaqlara yol hərəkəti qaydalarının kiçik yaşlardan öyrədilməsinin vacibliyinə diqqət çəkən Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin inspektoru polis kapitanı Pərvanə Muradova belə tədbirlərin həm də təbliğat məqsədi daşıdığını deyib. Tədbirdə sözügedən mövzuda uşaqların yeni biliklər əldə etmələri, küçə və yollarda təhlükəsiz davranış vərdişlərinə yiyələnmələrinin vacibliyi diqqətə çatdırılıb.

Sonra uşaqların çıxışları ilə davam edən tədbirdə müxtəlif səhnəciklərdən ibarət kompozisiya təqdim edilib, onların yol hərəkəti qaydaları ilə bağlı bilikləri sınağa çəkilib.

**Suraxanı Rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin** əməkdaşları da 2 saylı uşaq evi - sosial xidmət müəssisəsində uşaqlarla görüşüblər.

Kimsəsiz və xüsusi qayğıya ehtiyacı olan 90-dan artıq uşağa həmkarlarımız tərəfindən hədiyyələr təqdim edilib. Tədbirdə yol hərəkəti qaydaları ilə bağlı keçirilən viktorina və müxtəlif oyunlar uşaqların marağına səbəb olub.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Qan ver, yaşat!

## Polis əməkdaşları bu deviz altında qan verdilər



Bu günlərdə Baş Dövlət Yol Polisi İdarəsində qanvermə aksiyası keçirilib.

Baş İdarənin və Mərkəzi Qan Bankının birgə təşkilatçılığı ilə "Talassemiyasız həyat naminə" proqram layihəsi çərçivəsində aksiyaya 44 əməkdaş qoşulub.

Qeyd edək ki, analoji tədbirlərdə Suraxanı Rayon Polis İdarəsinin, Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin və Xətai Rayon Mühafizə İdarəsinin əməkdaşları fəallıq nümayiş etdiriblər.

*R.Vəliyev*

# Narkokuryerlik edirdilər

## Əvvəllər məhkum olunmuş şəxslər istintaqa cəlb olunub

Paytaxt ərazisində polis əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan əvvəllər məhkum olunmuş Təbriz Quliyev və Hüseyn İsmayılov saxlanılıblar. Baxış zamanı T.Quliyevdən 2 kiloqram heroin, 300 ədəd psixotrop tərkibli metadon həbi, H.İsmayılovdan isə 2 kiloqrama yaxın heroin və metamfetamin aşkar edilib. Dindirmə zamanı H.İsmayılov "Baba" adı ilə tanıdığı şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı tərəfindən narkokuryerliyə cəlb olunduğunu bildirib.

Saxlanılanların daxil olduqları narkoşəbəkənin digər üzvlərinin saxlanılması istiqamətində araşdırmalar davam etdirilir.

# Vətəndaşlar çağırışa qoşulub

## Silahların könüllü təhvili məsuliyyət yaratmır

Polis əməkdaşları qanunsuz saxlanılan odlu silahların könüllü təhvil verilməsi ilə bağlı profilaktik tədbirləri davam etdirir.

Saatlı rayonunun Nərimankənd kənd sakini evinin həyətindəki tövlədə söküntü işləri aparan zaman dünyasını dəyişən atasının orada gizlətdiyi bir ədəd avtomatı, iki ədəd darağı və 21 ədəd patronu aşkar edib və könüllü olaraq polis əməkdaşlarına təhvil verib.

Beyləqan rayon sakinləri də 1 ədəd "AK-74" silahını, 2 ədəd "F-12 və 1 ədəd "RQN-D" əl qumbarasını partlayıcıları ilə birlikdə, 196 ədəd patronu və 2 ədəd darağı təhvil verərək polisin çağırışına qoşulublar.

Yeri gəlmişkən, martın 30-dan aprelin 2-dək paytaxt və respublikanın ayrı-ayrı rayonlarından 15 tüfəng, 1 avtomat silahı, 1 tapança, 1 patron darağı və 1 müxtəlif çaplı patronlar polisə təhvil verilib.

Keçirilən əməliyyat tədbirləri ilə isə 7 avtomat silahı, 4 tapança, 1 tüfəng, 6 patron darağı və 68 ədəd patron aşkar edilərək götürülüb.

Kəlbəcər rayonunun Çaparlı kəndi ərazisindən 2 ədəd "KS-19" zenit silahları və Həsənriz kəndi ərazisində çoxlu sayda müxtəlif çaplı patron və avtomat daraqları aşkar olunub.

# Tədbirlər davam edir

## Xankəndidə silah-sursat aşkar edilib



Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə martın 27-dən aprelin 2-dək Xankəndi şəhəri ərazisindən ümumilikdə 32 ədəd müxtəlif markalı avtomat silahı, 3 ədəd tapança, 7 ədəd tüfəng, 2 ədəd qumbaraatan, 5 ədəd süngü bıçağı, 2 ədəd pulemyot, 29 ədəd qumbara, 6 ədəd tank əleyhinə qumbaraatan, 4 ədəd mina, 33 ədəd alışdırıcı, 297 ədəd patron darağı, 18462 ədəd müxtəlif çaplı patron və digər sursatlar aşkar olunaraq götürülüb.

# Peşə vərdişləri təkmilləşdirilir

## Silahsız özünümüdafiə vacib şərtdir

**Bu günlərdə Nəsimi Rayon Polis İdarəsinin yeni istifadəyə verilmiş idman zalında polis əməkdaşları arasında silahsız özünümüdafiə üzrə çempionat keçirilib.**




Əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda edən igid oğullarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Dövlət Himni səsləndirilib.

Yarışda Nəsimi Rayon Polis İdarəsinin 110 əməkdaşı 4 çəki dərəcəsində mübarizə aparıb. Silahsız özünü müdafiə və əlbəyaxa döyüş növləri olmaqla 2 mərhələdə keçirilən çempionatda qalib gələn polis əməkdaşları medal, diplom və xatirə hədiyyələri ilə təltif ediliblər.

Mükafatlandırma mərasimində çıxış edən Nəsimi RPİ-nin rəisi polis polkovniki Mirnemət Mirbabayev xidmətdə fiziki hazırlığın önəmini xüsusi qeyd edib, əməkdaşların silahsız özünümüdafiə fəndlərinə daha yaxşı yiyələnmələri məqsədilə keçirilən yarışın əhəmiyyətinin vacibliyini diqqətə çatdırıb.

Qeyd edək ki, yarışı Nəsimi Rayon İcra Hakimiyyətinin və DİN İdman Cəmiyyətinin nümayəndələri də izləyib.

*Ruhiyyə Əliyeva*
*polis kapitanı*

# Qızıl medal qazandı

## Polis serjantı ölkə çempionu oldu




Martın 31-də Azərbaycan Karate Federasiyasının nəzdində fəaliyyət göstərən full kontakt karate və kyokuşin karate növləri üzrə 25-ci açıq respublika birinciliyi keçirilib.

Abşeron Olimpiya İdman Kompleksində təşkil olunan yarışda 250-dən çox idmançı mübarizə aparıb. Qaliblər 48 dəst medal uğrunda qüvvələrini sınayıblar.

Bakı Şəhər Baş Polis İdarəsinin Əməliyyat Statistik və İnformasiya İdarəsinin əməkdaşı polis baş serjantı Solmaz Zeynallı da bu yarışda gücünü sınayıb. DİN İdman Cəmiyyətinin yetirməsi olan S.Zeynallı 60 kiloqram çəki dərəcəsində rəqiblərinə qalib gələrək qızıl medala sahib çıxıb.

*Ruhiyyə Əliyeva*

# Detektivlərin dostu Doks

## Ona hətta heykəl də qoyulub



Doks adlı it 50-ci illərdə İtaliyada oğruların və qatillərin kabusuna çevrilmişdi. Roma polis rəisi Giovanni Maimoneyə məxsus olan bu əfsanəvi itin adı dünya polis itləri tarixində ilk sırada gəlir.

Doks sözün əsl mənasında həyat qurtarırdı. Məsələn, balaca bir qızı son anda kənara itələyərək sürətlə gələn avtomobilin altında qalmaqdan qurtarması, bir oğrunun gülləsindən ayağı sınsa da, onu 8 kilometr qovduqdan sonra tutması, ayaqlarından və burnundan istifadə edərək ələ keçirilən silahın güllələrini boşaltmağı bacarması və ən mürəkkəb düyünlərlə stullara bağlanmış girovları xilas etməsi... bunlar onun qeyri-adi nailiyyətlərindən yalnız bir neçəsi idi...

Rəhbəri Giovanni Maimone həyatı boyunca 7 dəfə iş başında yaralanan qəhrəman iti ad günündə şam yeməyinə aparmaq üçün şəhərin ən yaxşı restoranlarını bir-bir gəzsələr də, Doks heç birini "bəyənməmişdi".

Nəhayət, kiçik bir restorana girməyə razılaşmışdı. Amma içəri girən kimi yemək yemək əvəzinə müştərilərdən birinin üstünə cummuşdu. İki nəfərdən başqa hamı buna çox təəccüblənmişdi. Biri Giovanni Maimone, digəri düz altı il əvvəl Doksdan canını birtəhər qurtara bilmiş cinayətkar idi. Doks onu qoxusundan tanımışdı.

Gecələrin birində Romanın məşhur teatrlarından birinin zirzəmisində gizlənən oğru teatr bağlanandan sonra teatr binasının yanındakı zərgər dükanının divarını deşərək onu soymağa cəhd etmişdi.

Lakin gecə gözətçisi onu hadisə yerində yaxalayarkən əlbəyaxa olsalar da oğru qaçıb canını qurtara bilmişdi.

Səhəri gün hadisə yerinə Doksu gətirmişdilər. Doks mühafizəçinin paltarından oğrunun iyini hiss etdikdən sonra rəisini, yəni sahibi Giovannini yaxınlıqdakı anbara dartıb aparmışdı. Anbarda bir nəfər yatırdı və Doks onun üstünə cummuşdu.

O günahkarı tutduğuna tam əmin idi. Bu adam keçmiş məhkum idi, lakin o, polisləri dünən gecə baş verən hadisə ilə heç bir əlaqəsi olmadığına inandıra bilmişdi. Üstəlik, mühafizəçi də onu tanıya bilməmişdi. Maimone buna görə Doksu danlamışdı. Dəlil tapmaq üçün Doksun "təkidi" ilə onlar yenidən onun zərgərlik dükanına qayıtmışdılar və yerdə qırıq düymə tapmışdılar. Doks düyməni iylədikdən sonra hürərək adamın olduğu anbara qayıtmaqda israr etmişdi. Anbarda çatanda Doks oradakı qarderobları iyləməyə və qarderoblardan birinin qapısını cırmaqlayaraq asılqandakı paltarların arasındakı paltonu didişdirməyə başlamışdı. Onun bir düyməsi çatışmırdı və bu çatışmayan düymə zərgərlik dükanında tapılan düymə ilə eyni idi. Oğru bu cinayətin üstünün açılmayacağını, polisləri aldatdığını zənn etsə də, amma Doksun burnunu aldada bilməmişdi...

*Hazırladı: Aytən Tahirova*

# Samboçu polislərin sınağı

## Çempionat maraqlı anlarla yadda qalıb




**DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə sambo üzrə Daxili İşlər Nazirliyinin çempionatı keçirilib.**

Çempion adı uğrunda Əlahiddə Çevik Polis Alayının, Baş Mühafizə İdarəsinin, DİN Daxili Qoşunların, Gəncə Şəhər Baş Polis İdarəsinin, Nəqliyyatda Baş Polis İdarəsinin, Diplomatik Nümayəndəliklərin Mühafizəsi Üzrə Əlahiddə Polis Taborunun, DİN Polis Akademiyasının, Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin, Sumqayıt Şəhər Polis İdarəsinin və DİN Komendant Xidmətinin 50-dən çox əməkdaşı 5 çəki dərəcəsində mübarizə aparıb.

Gərgin keçən qarşılaşmalardan sonra DİN Daxili Qoşunların komandası birinci, Sumqayıt Şəhər Polis İdarəsinin komandası ikinci, Əlahiddə Çevik Polis Alayının komandası isə üçüncü yeri tutub.

*Ruslan Vəliyev*
*polis baş leytenantı*

# Polis xəfiyyəsi Ejen Fransua Vidokun memuarları - Hədəfdə "Qızıl alma"dır

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

- "Lənətə gəlmiş briqadadan söz düşmüşkən, sonradan məşhur polis xəfiyyəsi olmuş o əclaf haqqında eşitmisiz? Deyilənə görə, adı Vidokdur. Aranızda onu tanıyan-bilən var?"- deyə gəmiqayırma zavodunun işçisi hamının eşidəcəyi səslə soruşdu.

Mən də daxil olmaqla hamı birlikdə cavab verdi. Adını da eşitmişik, barəsində dolaşan şaiələri də.

-Debüssi: Haqqında o qədər söz-söhbət dolaşır ki, düz 24 ildir Parisdə onun sözünün üstünə söz deyən yoxdur.

- İşçi: Nə ağzına gələni danışırsan, axmaq! Vidok ömürlük katorqaya məhkum olunmuş məşhur oğruydu. Yalnız "dostlarını" ələ verəcəyinə söz verdiyi üçün o cəhənnəmdən qurtara bilib. Çox evlər yıxıb bu Vidok. Onun qurduğu tələyə düşən, çətin ki bir də ordan qurtarar. Bəli, Jake və Martino da onun güdazına gedənlərdəndi.

Deyilənə görə bir dəfə üçü bir yerdə oturub içirlərmiş – Vidok, ondan geri qalmayan Ribule və əzizimiz Maşkin.

-Hamı birdən: Sarışın Maşkin?

- İşçi: Özüdür ki var. Oturub dağdan-arandan danışırlar. Söhbət əsnasında Vidok deyir ki, səfərdən təzəlikcə qayıdıb və "işləməyə" etibarlı dostlar axtarır. Bu zavallılar da axmaqcasına onun sözünə inanıb tələyə düşürlər. Onları elə məharətlə yoldan çıxarıb ki, heç ruhları da inciməyib. Özü isə oğurluq barədə lənətə gəlmiş briqadaya xəbər verib. Bax belə kələklərlə neçə-neçə Allah bəndəsini ilişdirib bu Vidok. Eşitdiklərini həvəslə bizə nəql edən dostumuz hər dəfə söhbətə ara verəndə, qədəhdəki şərabdan bir qurtum içirdik. Növbəti fasilədən istifadə edən Lapyer dedi:

### Gülməli tamaşa

- Bəsdi də, mənasız nağıllarla bizi lap gic elədin. Bir az da çərənləsən qulaqlarımızdan qan gələcək. Ağlınca bizi əyləndirirsən?

- İşçi: Düzü, mənə çox maraqlı gəlir, sən nə etmək fikrindəsən? Hə, bax, əgər kart olsaydı, sənə sözüm olmazdı.




- Lapyer: Yox,mən komediya səhnəsi oynamaq istəyirəm.

- İşçi: Aha, buyurun cənab Tarma!

- Lapyer: Sizcə,bu məndə tək alınar?

- Debüssi: Sən heç narahat olma, hansı səhnəni oynamaq istəyirsən söylə, biz sənə kömək edəcəyik.

- Lapyer: Siz hamınız məni səhv anlamısız. Mən "Vidokun sonu" adlı komediya parçasını oynamaq istəyirəm.

Həmin anda nə baş verdiyini və bunun hansı sonluqla nəticələnəcəyini bilməsəm də, özümdən qeyri-ixtiyari uca səslə dedim: "Vidok rolunu özüm oynayacam".

Razılaşdılar. Bu rol əsl sizlikdi, o da sizin kimi kökdür.

Sanki səhnə düzəldirmiş kimi Rişle otaqda bəzi dəyişikliklər etdi. Lapyer və məni evin bir küncünə, Lenuar, Debüssi və Etyeni(işçi) isə digər tərəfə göndərdi. Özü isə dirəyə (yataq dəstinə) söykənib tamaşaçı qismində rol aldı. Xəyali hadisələr Kurtildəki meyxanələrin birində cərəyan edirdi.

Mənim oynadığım rol demək olar ki, gündəlik həyatımla eyniydi. Məqam tapıb oğurlanmış əşyaları dostlarımın cibinə doldurduğum səhnədən sonra alqışlar və gülüş səsləri ətrafı bürüdü.

- Əla oynadın! "Aktyorlar" və "tamaşaçılar" məni tərifləyirdilər.

-Rişle: Məharətinizə sözüm yoxdur, dostlar, amma vaxtdır, günəş batmaq üzrədir. Tamaşanın ardını ya karetada, ya da malları satıb qayıdandan sonra oynayarıq. Mən qoşqu tapmağa gedirəm. Etirazı olan yoxdu ki?

-Əlbəttə, əlbəttə düz deyirsən. Tələsmək lazımdı.

Dram xoş əhval-ruhiyyə ilə sonlandı. Bu,dostlarımın gözlədiyindən bir qədər fərqli oldu və tamaşanın adıyla qətiyyən uyğun gəlmirdi.

Bir göz qırpımında karetaya doluşduq və faytonçuya tez bizi Bretan və Turin küçələrinin kəsişməsinə aparmasını söylədik. Oğurluq mal alanlardan biri olan Bra burdan iki addımlıqda yaşayırdı. Debüssi, Camri və Lenuar satmağı planlaşdırdığımız malların bir hissəsini götürüb faytondan düşdülər.

*(Ardı var)*

# Müdriklərin söz xəzinəsi

## Ağac kökü ilə güclüdür, insan dostları ilə

Pulu hər şeyə qadir hesab edən adamlar özləri pul üçün hər şeyə qadirdirlər.
**F.M.Volter**

Kişini həddən artıq doldurmaq onun yırtılması ilə nəticələnir.
**C.M.Servantes**

Həqiqət yolu çətin yoldur, odur ki, çox az adam bu yola qədən qoyur, amma bu yolun zirvəsinə çatanların qarşısında son dərəcə gözəl mənzərə açılır.
**M.Bruno**

Sadəlik – insan ləyaqətini dərk etmək deməkdir.
**İ.K.Fixte**

Öz şəxsi işin barədə başqası ilkə məsləhətləşmək istəyirsənsə, əvvəlcə onun öz şəxsi işlərini necə qurmasına fikir ver.
**S.Smayls**

Hirs atəşinin ilk odundan qəzəb sahibi özü yanar, alovun düşmənə çatıb-çatmaması isə sonraya qalar.
**Sədi**

Qəbahətləri boynuna almamaq, səhvləri etiraf etməmək yeni qəbahətlərə yüklənmək deməkdir.
**B.Paskal**

Qəzəb insanı daxildən parçalamağa hazır olan şirdir.
**M.Dəvani**

Bir nəfərə edilən ədalətsizlik hamı üçün təhlükəlidir.
**Ş.Monteskiye**

Yalnız özü üçün xeyirxah olan adamı bədxah adlandırmaq lazımdır.
**S.Publili**

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10582
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik